# *Umberto de PRETTO:*
# "Karbon emissiyalarını azaltmaq üçün tətbiq edə biləcəyimiz bir çox tədbir var"



**"Əsl dəyişiklik üçün etməli olduğumuz tək şey danışmağı bir kənara qoyub hərəkətə keçməkdir. Çünki davamlılıq sözlə deyil, əməl ilə qurulur. Karbon emissiyalarını azaltmağa yönəlik tətbiq edə biləcəyimiz bir çox tədbir var. Azərbaycanın 5 min sürücüsünə nəqliyyat idarə edərkən ətraf mühitə daha səmərəli olmaq üçün təlim keçdiyimizə görə çox qürurluyam".**

Bunu AZƏRTAC-a müsahibəsində Beynəlxalq Avtomobil Nəqliyyatı İttifaqının baş katibi Umberto de Pretto deyib.

"Hökumətlərdən yol nəqliyyat sənayesi ilə işləməyini istəyirəm. İnsanların avtobuslara və qatarlara minməsi, daha yaxşı təlim keçmiş sürücülərin idarə etdiyi təhlükəsiz taksilərdən istifadəsi vacibdir.

Biz emissiyalarımızı azaldacağıq. Bu gün yollarda olan yük maşınlarının 99,3 faizi dizellə işləyir. Əgər belədirsə, biz bunu daha səmərəli necə edə bilərik? Bütün suallara cavab tapmaq məqsədilə çalışmalıyıq ki, layihələrimizi həyata keçirək", - deyə Umberto de Pretto bildirib.

Azərbaycan.- 2024.- 22 noyabr (№ 257).- S.4.